*“Xalq qəzeti”ndə yeni layihə*

# Dünya xalqlarının qəlbində yaşayan ümummilli lider

**“Xalq qəzeti” bu sayından redaksiyanın Diasporla İş üzrə Dövlət Komitəsi ilə birgə həyata keçirməyə başladığı layihə əsasında hazırlanmış yazıları dərc etməyə başlayr. Layihədə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə dünyanın müxtəlif xalqlarının görkəmli insanlarının yaddaş saxlancında yaşayan xatirələrin diaspor qurumu əməkdaşlarının və fəallarının dəstəyi ilə toplanıb ardıcıl olaraq oxucularımıza çatdırılması nəzərdə tutulur.**

**Azərbaycanda Heydər Əliyev İli elan olunmuş 2023-cü il boyunca davam edəcək layihənin materialları ayrıca kitab şəklində də çap ediləcək.**

**Layihənin ilk yazısını – Diasporla İş üzrə Dövlət Komitəsinin Gürcüstan sektorunun böyük məsləhətçisi Nəriman Əliyevin hazırlayıb redaksiyamıza göndərdiyi Gürcüstan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik Roin Metrevelinin ümummilli lider Heydər Əliyev barədə xatirəsini oxucularımıza təqdim edirik.**

# Heydər Əliyev böyük mənəvi zənginlik saçan nadir şəxsiyyət idi

**Azərbaycan xalqının milli öndəri, gürcü xalqının böyük və unudulmaz dostu Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə ölkənizdə 2023-cü ilin Heydər Əliyev İli elan olunması Gürcüstanda da xoş duyğularla qarşılandı. Azərbaycan xalqının bu qərarla bağlı yaşadığı sevincə mən də qoşuluram. Üstəlik, Qafqaz xalqlarının taleyində və xatirəsində silinməz izlər qoymuş bu siyasət korifeyi ilə bağlı əziz xatirəmi və səmimi duyğularımı dost azərbaycanlı oxucularla bölüşməkdən xüsusi məmnunluq duyuram.**

Keçən əsrin 60-cı illəri Cənubi Qafqazın həm siyasi, həm də sosial-mədəni həyatında mühüm dəyişikliklərlə yadda qalıb. Həmin illərdə Heydər Əliyev Azərbaycanın birinci rəhbəri seçilərək öz



ölkəsinin bütün sahələr üzrə inkişafında mühüm rol oynayıb. Mən o xöşbəxt insanlardan biriyəm ki, bu möhtəşəm şəxsiyyətlə bir neçə dəfə görüşmüşəm.

Ölkələrimiz müstəqillik qazandıqdan sonraki dövrdə – 1996-cı ildə mən İvane Cavaxişvili adına Tbilisi Dövlət Universitetinin rektoru idim. Universitetin Elmi Şurasının qərarı ilə Azərbaycan Prezidenti Heydər Əliyev bizim ali məktəbin fəxri doktoru adına layiq görülmüşdü. Həmin il aprel ayının əvvəlində dost Azərbaycanın lideri böyük nümayəndə heyəti ilə Tbilisiyə səfərə gəlmişdi.

Həmin səfər çərçivəsində Prezident Heydər Əliyevlə TDU-da görüş təşkil olunmuşdu. Ali qonağımız bu görüşə Gürcüstan Prezidenti Eduard Şevardnadze ilə birlikdə, hər iki ölkənin tanınmış insanları, azərbaycanlı akademiklər Ziya Bünyadov və İqrar Əliyev kimi görkəmli tarixçilərlə gəlmişdi.

Təntənəli mərasimdə mən rektor olaraq Tbilisi Dövlət Universitetinin



fəxri doktoru diplomunu Azərbaycan Prezidenti Heydər Əliyevə təqdim etdim. O, bizim bu qərarımızdan çox məmnun göründü. Azərbaycan rəhbəri çıxışında öz razılığını və ən səmimi duyğularını təntənə ilə ifadə etdi. TDU-nun fəxri doktoru olması münasibətilə Prezident Eduard Şevardnadze, alimlər və tələbələr də Prezident Əliyevi təbrik etdilər.

Fəxri doktorumuzun çıxışı isə çox təsirli və yaddaqalan oldu. Heydər Əliyev gürcü xalqına böyük sevgisindən danışdı, universitet və tələbələrə xoş sözlər ünvanladı, kollektivimizə uğurlar arzuladı. Dost Azərbaycanın dövlət başçısı Tbilisi Dövlət Universiteti ilə Bakı Dövlət Universitetinin əməkdaşlığının daha da genişləndirilməsinin vacibliyini də vurğuladı. Ali qonağımız yaxın illərdə BDU-nun 80 illik yubileyinin keçiriləcəyini də bildirdi.

Təntənəli mərasimdə mən Prezident Heydər Əliyevin TDU-nun fəxri doktoru seçilməsinin bizim üçün böyük şərəf olduğunu söylədim, xalqlarımız arasında dostluğun tarixi sınaqdan çıxmasında və möhkəmlənməsində onun müstəsna rolunu qeyd etdim. Sonda diplom və medalı fəxri doktorumuza təqdim etdim. Həmin anlar sürəkli alqışlarla tarixə həkk oldu.

Sonra dövlət başçıları Heydər Əliyev, Eduard Şevardnadze və mən bir yerdə ölkələrimiz arasında elm, təhsil əlaqələrinin və mədəni əməkdaşlığın inkişaf etdirilməsi ilə bağlı ətraflı söhbət etdik. Biz, bütövlükdə, Qafqazın inkişaf perspektivləri barədə fikir mübadiləsi apardıq. Bu ilk görüş xatirimdə böyük iz buraxdı.

Heydər Əliyev böyük siyasətçi olaraq həmin illərdə Azərbaycanda nəinki iqtisadiyyatın, eləcə də mədəniyyət və elmin inkişafına da xüsusi diqqət yetirirdi. Mən deyərdim ki, Heydər Əliyev hələ birinci dəfə Azərbaycanın rəhbəri olarkən də ölkəniz yüksək iqtisadi-sosial inkişafa yüksəlmiş, mədəniyyət sahəsində intibah dövrü yaşamışdı. Bu illərdə Azərbaycan və Gürcüstanın hərtərəfli dostluq əlaqələri də inkişaf etmişdi. Bu yol müstəqillik illərində daha geniş hüdudlara çıxdı.

Dünya miqyaslı siyasət və dövlət xadimi Heydər Əliyevlə ikinci görüşüm 1999-cı ildə olmuşdu. Həmin ilin payızında Bakı Dövlət Universitetinin 80 illik yubileyi qeyd edilirdi. Mən Bakıya gələn gürcü nümayəndə heyətinə rəhbərlik edirdim. Yubiley şənliklərində Türkiyənin, təxminən, 15 ali məktəbinin rektoru iştirak edirdi. M.Lomonosov adına Moskva Dövlət Universitetinin rektoru, akademik Viktor Sadovniçi də mərasimə qatılmışdı. Prezident Heydər Əliyev təntənəli toplantıdan sonra rektorlarla ayrıca görüş keçirdi. O, bizi salamlayandan, görüşün önəmindən danışandan sonra sözü rektorlara verdi.

İlk olaraq türkiyəli rektorlar çıxış etdilər, sonra Viktor Sadovniçi danışdı. Mən axıra qaldığımdan fikirləşdim ki, iki saat çəkən görüşdən sonra cənab Heydər Əliyev yorğun ola bilər. Danışmaq istəməsəm də Azərbaycan rəhbəri mənim də söz deməyimi istədi. Mən bu böyük insana onun TDU-nun fəxri doktoru olduğunu xatırladanda o, bundan məmnunluğunu söylədi. Möhtərəm Heydər Əliyen mənə xitabən düz 40 dəqiqə Gürcüstana olan sevgi-sayğısından və dostluğumuzdan danışdı.

Titanik fəaliyyəti ilə öz xalqına sonadək fədakarlıqla və ləyaqətlə xidmət edən Heydər Əliyev böyük mənəvi zənginlik saçan nadir şəxsiyyət idi. Onun gördüyü işlər o qədər böyükdür ki, bünün əhatəli miqyasını dəyərləndirmək çətindir. Mən deyərdim ki, Qafqaz regionun da lideri sayılan Azərbaycan Prezidenti Heydər Əliyev dünya miqyasında ən nüfuzlu siyasətçilərdən və dövlət başçılarından idi. Heydər Əliyev fenomeni, doğrudan da, tarixi hadisədir. O, bütün dünya üçün tarixi bir şəxsiyyət, unudulmaz bir siyasət nəhəngidir.

Müstəqil Azərbaycanın memarı və qurucusu Heydər Əliyevin ən layiqli siyasi varisi Prezident İlham Əliyevin rəhbərliyi altında ölkənizin yüksək və hərtərəfli inkişafı uğurla davam edir. İlham Heydər oğlu dərin zəkalı şəxsiyyət, ölkəsini irəli aparan, mənfi təsirlərdən qoruyan güclü dövlət başçısıdır. Hesab edirəm ki, o, ata Əliyevin yolunun və irsinin layiqli davamçısıdır. Azərbaycanın ərazi bütövlüyünün təmin olunması isə İlham Əliyevin atası Heydər Əliyevin bu böyük arzusunu Zəfərlə gerçəkləşdirməsi oldu.

**Çapa hazırladı:**
**Tahir AYDINOĞLU,**
**“Xalq qəzeti”**